

# Azərbaycan Kinosu Günü qeyd olunub




**Azərbaycan kinosu Gününün 126-cı ildönümü təntənəli şəkildə qeyd edildi. Nizami Kino Mərkəzinin qarşısında təşkil olunan Azərbaycan kinematoqrafiyasına həsr olunan sərgi mədəniyyət xadimləri, kino ictimaiyyəti nümayəndələri və film həvəskarlarının böyük marağına səbəb olub. Mədəniyyət Nazirliyinin Nizami Kino Mərkəzində təşkil etdiyi anşlaqla keçirilən bayram tədbiri görkəmli kino xadimləri, aktyorlar, rejissorlar, operatorlar, səs rejissorları, bəstəkarları, həyatını kino sənətinə həsr edən insanları bir araya toplamışdı.**

Tədbirin açılış mərasimində çıxış edən mədəniyyət nazirinin müavini Səadət Yusifova Azərbaycan kinosunun böyük inkişaf yolu keçdiyini qeyd edib: "Bu illər ərzində Azərbaycan kinosu çoxlu enişli-yoxuşlu yollar keçib. Transformasiyalara məruz qalmasına baxmayaraq kino hər zaman milli ənənələrinə, yüksək mənəvi dəyərlərinə sadiq qalıb. Müasir Azərbaycan kinosunun inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Kinonun həyatın bütün sahələrinə nüfuz etmək imkanını nəzərə alaraq, bu sahəyə böyük önəm verib. Məhz onun dəstəyi ilə aparılan araşdırmalar nəticəsində Azərbaycan kinosunun əsl yaşı müəyyən edildi və 1898-ci ildə çəkilən "Balaxanıda ilk neft fontanı" filmi ilə - avqustun 2-si Azərbaycan Kinosu Günü elan edildi.

Artıq 24 ildir ki, bu tarix Azərbaycanın kino işçilərinin peşə bayramı kimi qeyd olunur. Prezident İham Əliyev kino sənətimizi daim diqqət mərkəzində saxlayır. Kinonun inkişafı ilə bağlı Dövlət Proqramlarının qəbul edilməsi, kinostudiyaların maliyyə-texniki bazasının gücləndirilməsi, 1993-cü ildə Heydər Əliyevin tapşırığı ilə yaradılan Azərbaycan Dövlət Film Fondunun müasir standartlara cavab verən binasının tikilməsi, Mədəniyyət Nazirliyi yanında Kino Agentliyinin yaradılması, dövlət sifarişi ilə filmlərin istehsalının və gənc kinematoqrafçıların yaradıcılığının dəstəklənməsi məqsədilə hər il Prezidentin Ehtiyat Fondundan filmlərin istehsalı üçün maliyyənin ayrılması kinoya olan dəstəyin bariz nümunəsidir. Son 20 il ərzində Azərbaycan kinosunun inkişafına 100 milyon manatdan çox vəsait ayrılıb, 1763 bədii, animasiya, sənədli filmlər çəkilib. Beləliklə, 126 illik tarixi olan Azərbaycan kinosu milli mədəniyyətimizin formalaşmasında böyük rol oynayıb, kinematoqrafçılar isə əfsanəyə çevrilmiş klassik kino əsərləri yaradıblar. Bu gün cəmiyyətin gözləntilərinə cavab olaraq, dövrümüzün aktual mövzularının kinoya gətirilməsi, 44 günlük Vətən müharibəsinin sənədli xronikası, qloballaşan dünyanın mənfi təzahürlərinə cavab olaraq milli-mənəvi, ailə dəyərlərinin təbliği, vətənpərvərlik, Vətən sevgisinin təşviqi kimi yeni məzmunların hazırlanması, kinonun müxtəlif janrlarının inkişafı üçün bərabər şəraitin yaradılması, mədəni yaradıcı sənayenin aparıcı seqmenti kimi audio-vizual sahənin iqtisadi baxımdan stimullaşdırılması və onun iqtisadiyyatın ən gəlirli sahələrdən birinə çevrilməsi gündəmdə duran məsələlərdir", - deyə o bildirib.

Daha sonra Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri, xalq artisti Rasim Balayev, Oqtay Mirqasımov, ARKA-nın baş direktoru vəzifəsini icra edən Orxan Fikrətoğlu və başqaları çıxış ediblər. Tədbir müxtəlif illərdə çəkilmiş filmlərin retrospektivi və musiqiçilərin, rəqqasların çıxışları ilə davam edib.

**Aygün İBRAHİMOVA,**
**"Respublika".**